


# "Ərənlərə zaman olmaz...", yaxud "Ərmişlərin söhbəti"nin sorağında...

## Əhməd Kabaklı – 100

***Türk dünyasının gələcəyi naminə, milli-mənəvi tərəqqisi uğrunda, ədəbiyyatımızın tədqiqi, təbliği yolunda qələmi, sözü, əməliylə yorulmadan mücadilə edən böyük bir türk ziyalısıdır Əhməd Kabaklı. Adını yaşadan, ona ölməzlik gətirən böyük işlərə imza atıb. Hələ sağlığında "Şeyxul-mühərririn" – yazarların şeyxi, mənəvi rəhbəri adlandırılan, "yazarların xocası və ucası"(A. Rüstəmli) Əhməd Kabaklı "özünəməxsus ədəbiyyatşünaslıq məktəbi yaratmış böyük elm xadimi (İ.Həbibbəyli), "ümumtürk milli mədəniyyətinin sütunu olan abidə şəxsiyyət" (C. Feyziyev) kimi də dəyərləndirilir. "Əhməd Kabaklı" adı çəkiləndə hər şeydən öncə, mənim İstanbulda "Türk Ədəbiyyatı Vəqfi"nə gəldiyim ilk gün yadıma düşür... İllər öncə məni bu vəqfə o vaxt İstanbulda çalışan əziz dostum araştırmaçı-yazar Sevil Abbasova-İrəvanlı gətirmişdi. Kitabxanayla, orda bərabər çalışdığı dəyərli insanlarla - Göksal xanımla, Halid bəylə tanış etdi. Axşam isə Mövlana Cəlaləddin Ruminin yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün Konyaya yola düşəcəkdik. Gedərkən rəfiqəm mənə bir kitab da hədiyyə etdi. Əhməd Kabaklının "Mövlana" kitabını...***

Uzun illərdən sonra Türk Ədəbiyyatı Vəqfinə yenə Sevil xanımla gəldik. Bu dəfə o, önəmli bir konfransda iştirak etmək üçün (İstanbul Universitetinin doktorantı kimi), mənsə kitabxana və arxivlərdə araşdırma aparmaq üçün İstanbuldaydıq. Bu doğma məkanda bizi yenə Halid bəy gülər üzlə qarşıladı. "Türk ədəbiyyatı" dərgisinin bir neçə sayını və dəyərli kitablardan bir neçəsini aldıq. Bu dəfə də Vəqfdən ayrılanda əlimdə yenə Əhməd Kabaklının çoxdandır alıb oxumaq istədiyim bir kitabı vardı – " Ərmişlərin söhbəti". Alim-yazarın vaxtilə "Tərcüman" qəzetində dərc olunmuş "Ərmişlərlə söhbət" sərlövhəli silsilə yazılarının toplandığı bu dəyərli kitabı uzun müddət Əhməd Kabaklının yanında çalışmış, köməkçisi olmuş Halit Baykal nəşrə hazırlayıb.

***Bir neçə gün sonra Vəqfin ənənəvi "Çərşənbə söhbətləri"hdən birində də iştirak etmək nəsib oldu. Dəyərli insan, ötən il dünyasını dəyişmiş Türk dünyasının gözəl övladı, əziz insan Qənirə xanım Paşayevaya həsr olunmuş bu tədbir başlamazdan əvvəl Vəqfin rəhbəri Serhat Kabaklıyla, dərginin baş redaktoru İmdad Afşarla da tanış olduq. Müsahibə götürmək üçün də söz aldıq. Alim qardaşımız Prof.dr. Ramazan Qorxmazla, Qənirə xanımın doğmaları (Tehran xanımla, Kəmalə xanımla), dostlarıyla görüşdük. Tədbirdə Qənirə xanımın yeni nəşr olunmuş kitablarından da hər iştirakçıya biri ("Yitirdiğim Mutluluk", "Turan Yolcusu", "Kuma Yazılan Acılar", "Sahipsiz Sanılan Nağmelerimiz", "Gül Ömürler Solmasın") təqdim edildi. Mənim payıma da "Sahipsiz Sanılan Nağmelerimiz" düşdü.***
Tədbirdən bir neçə gün sonra vədələşdiyimiz kimi Serhat bəylə görüşüb həmsöhbət olduq. İmdad bəy isə Sakaryada olduğu üçün söhbətləşmək nəsib olmadı. Bu dəfə Vəqfə üç dəyərli insanla bərabər qonaq olduq. Gözəl insan, dəyərli alim Dr.Yusif Gədikli, "Post" Yayınevinin rəhbəri Hayrı Ataş və gözəl xanımı Kadriyə xanımla əvvəlcə Türk Dünyası Araşdırmalar Vəqfini ziyarət edib sonra Türk Ədəbiyyatı Vəqfinə gəlmişdik. Həmsöhbətim isə Vəqfin başqanı, Əhməd Kabaklının mənəvi davamçısı, onun və yaratdığı vəqfin adını şərəflə yaşadan hörmətli Sərhat Kabaklıdır.

- Sərhat bəy, Əhməd Kabaklı adı çəkiləndə mənim bu vəqfə gəldiyim ilk gün yadıma düşür. İllər öncə məni bu vəqfinizə o vaxt İstanbulda çalışan əziz dostum araştırmaçı-yazar Sevil İrəvanlı gətirmişdi. Kitabxananızla, Göksal hanımla, Halid bəylə tanış etdi. Axşam Konyaya uçacaqdı təyyarəmiz. Mövlana Cəlaləddin Ruminin yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün Konyaya yola düşəcəkdik. Gedərkən rəfiqəm mənə bir




kitab da hədiyyə etdi . Əhməd Kabaklının "Mövlana" kitabını... Əhməd Kabaklı adı böyük bir addır. Bilmək istərdim, bu ad çəkilərkən sizin ilk ağlınıza gələn nədir? Onu tanımayan insanlara birneçə kəlməylə necə tanıdardınız?

- Əhməd Kabaklı adı gələndə mənim ilk ağlıma gələn söz, sözsüz ki, əmidir. Və mənim həyatımda çox böyük rol oynamış bir əmi. Yəni, mənim atam az bir maaşla dörd uşaq oxudarkən o, "Sərhat mənə aiddir, o, İstanbula gəlsin, onun bütün xərcləri mənimdir" - deyib məni burda oxudan və həm fikri, həm də fiziki inkişafımı – hər şeyi mənə bəxş edən bir insandır Əhməd Kabaklı. O vaxtlar Türk Ədəbiyyatı Vəqfi yoxdu, Türk Ədəbiyyatı Cəmiyyəti vardı, Yaşılay binasında. Biz orada kiçik gəmiçi oturacaqlarında oturub böyük-böyük adamları beləcə qürurla dinləyərdik... Əhməd Kabaklı, özü də ifadə etdiyi kimi, tarixin içində yaşamış, tarixi yaşamış, bugünlərə gəlmiş və bu günlərə texnikaya olan sayğısı ilə birlikdə tarixi daşımış bir adam olaraq bilinir. Yəni, Türkiyədə heç bir zaman qruplaşmalara uymayıb, tamamilə bitərəf (partiyasız) olmuş, hər kəsi doğru yol hardadırsa, o tərəfə yönləndirməyə çalışmış bir adamdır. Buna görə də qurmuş olduğu bu vəqfdə çox böyük işlər görmüşdür. Biz də bu işlərin davamçısı olmaqdan həm xoşbəxt, həm də qürurluyuq.

***- Hocam, Türk dünyası, Türk ədəbiyyatı üçün rəhmətlik hocamızın gördüyü işlər məlumdur. Haqqında da cox yazılmış, biz də onu bu yazılar, xüsusən də, tədqiqatları, gördüyü işlər, kitablarıyla tanımışıq... Əhməd Kabaklının Azərbaycan barədə düşüncələrini, Azərbaycanla əlaqədar hansı önəmli işlər gördüyünü bir də sizin dilinizdən eşitmək istərdik.***




- Biz özümüzü tanımağa başladığımız vaxtlarda,15-16 yaşlarındaykən əmim qardaş oğullarını, məni, Sərvəti, Əsədi yanına çağırdı və bizə bu cümləni söylədi. Dedi ki, "uşaqlar, Türkiyə Qarsdan Ərdəhana, Ərdəhandan Ədirnəyə uzanan bir yer deyil, bizim Türkiyənin xaricində də soydaşlarımız, qardaşlarımız var. Türkcə danışan və hal-hazırda əsarət altında yaşayan, bəlkə də bizim onlara əl uzatmağımızı gözləyən qardaşlarımız var. Bunu əsla unutmayın!". Kabaklı hocanın bu sözlərindən sonra bizim Türk dünyasına baxışımız artıq çox fərqli oldu. Yəni artıq öz-özlüyümüzdə hər işə, "demək ki, bizim Şərqdə, Qərbdə bizim əməyimizə, çalışmamıza, bizim himmətimizə ehtiyac duyan qardaşlarımız var" məntiqiylə baxdıq. Kabaklı hocanın, xüsusilə, Bəxtiyar Vahabzadəyə qurduğu dostluq əlaqəsini xatırlayıram...Bəxtiyar Vahabzadə o zaman sovet dönəmində buraya hər hansı bir yazı, məktub göndərə bilmirdi. Yazılarını, şeirlərini Şərqi Almaniyada Əhməd Şmide vasitəsilə göndərirdi, təxəllüsdən istifadə edirdi. Mən o zaman əmimin yanındaydım və gələn məktubları da mən açardım. O zamanlarda biz Azərbaycanı, Azərbaycan ədəbiyyatını Kabaklı hocayla Bəxtiyar Vahabzadə arasındakı qardaşlıq münasibətilə görməyə, tanımağa başlamışdıq. Təbii ki, Azərbaycan azadlığına qovuşduqdan sonra Kabaklı hoca Azərbaycanı ziyarət etdi. Oradakı dostlarıyla görüşüb-söhbətləşdi. Orada ona dostcasına davrananlar olduğu kimi, hələ də kommunist düşüncəsindən qurtula bilməyib düşmən kimi davranan tiplərlə də qarşılaşdı. Amma artıq Azərbaycanla Türkiyə arasında qurulan körpülər dağılamayacaq, yıxılamayacaq nöqtəyə gəldi. Kabaklı hoca rəhmətə gedəndən sonra qardaşım Sərvət (o da Allah rəhmət eləsin, gənc yaşda getdi), sonra mən bu körpülərdən çox sıx-sıx istifadə etməyə başladıq. Azərbaycanla, Qırğızıstanla, Özbəkistanla, Qazaxıstanla, hətta sadəcə oralarla deyil, Balkan coğrafiyasında Kosovayla, Bosnayla, Makedoniyayla, Qərbi Trakyayla, hətta Kiprlə bu körpülər cox sağlam bir hala gəldi. Və biz bu gün də Türk dünyası ən azından, başqa bir şey istəmirik, mədəniyyət anlamında, mədəni cəhətdən, ədəbiyyat cəhətindən bir-birini anlayan və bir-biriylə qardaş olan bir dünya halına gəlsin deyə mücadiləmizi davam etdiririk.

- Əslində, ədəbiyyatımız, qardaş ədəbiyyatlar beləcə birləşirsə, ədəbiyyatlarımız bir-birini anlarsa, elə ruhumuz da, düşüncəmiz də bir olar. Çünki ədəbiyyat millətin ruhunu özündə əks etdirən mənəvi sərvətimizdir. Hocam, bu günlərdə Vəqfinizdə keçirilən önəmli bir tədbirdə iştirak etmək mənə də nəsib oldu. Türk dünyasının dəyərli insanı Qənirə xanım Paşayevanın anım günü keçiriləcəyini öyrənəndə mən də iştirak etmək istədim. Bu gözəl insanı şəxsən tanıyırdım, ona çox böyük hörmətim vardı. Bərabər həyata keçirəcəyimiz kitab layihələrimiz də vardı onunla... Allah rəhmət eləsin. Siz nə vaxtdan tanıyırdınız Qənirə xanımı? Tədbirdə danışarkən də çox təsirləndiniz, duyğulandınız... Sanki çox sevdiyiniz bir bacınızı itirmişsiniz, hocam. Əslində, əziz Qənirə xanımı yaxından tanıyan, bilən hər kəs sevərdi... Necə tanıdınız Qənirə xanımı? Və bu itki sizinçün nə deməkdir?

***Məncə, Qənirəni tanımaq bir məziyyət, tanımamaq isə bir utancdır. Biz Türkiyədə Qənirədən bəhs edərkən birisi "o kimdir ki?"– deyərkən, "Ay, bu adam nə qədər cahil, nə qədər manqurtdur!", - deyə düşünürük...***

***Tanımaq istəməmişdir, bəlkə də...***

***Elədir. Qənirəylə, təbii ki, Azərbaycana gediş-gəlişlərimizdə tanış olduq, onun bizə qarşı çox səmimi münasibətini gördük. O da Türkiyəyə gələrkən, Elazığa gələrkən qonaq etdik. Və aramızda bir qardaşlıq münasibəti yaranmağa başladı.Yəni, onun mənə "Abi", - deyə xitab tərzi, səslənməsi heç yadımdan çıxmaz...***

**(ardı gələn sayımızda)**

**Dos.Dr. Şəlalə Ana Hümmətli**